# 525-ci qəzet

7 avqust 2012-ci il, çərşənbə axşamı, №140 (3696). Qiymət 20 qəpik

www.525.az

# Bu gün İranda azərbaycanlı şairlərin məhkəməsi başlayır

## MƏHKƏMƏ PROSESİNİ SOYDAŞLARIMIZIN ƏN YAXIN AİLƏ ÜZVLƏRİ VƏ DİPLOMATLARIMIZ İZLƏYƏ BİLƏCƏK

Bu gün İranda üç ay əvvəl həbs olunmuş azərbaycanlı şairlər Fərid Hüseyn və Şəhriyar Hacızadənin məhkəməsi başlayır. APA-nın məlumatına görə, məhkəmə prosesində soydaşlarımızın hüquqlarını yerli, yaxud xarici vəkilin qoruyacağı məlum deyil. Prosesi izləyənlər arasında Azərbaycanın Təbrizdəki konsulluğunun nümayəndələri də olacaq. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, İran tərəfi ilə əldə olunan ilkin razılaşmaya əsasən, məhkəmə prosesinə ittiham olunan şəxslərin birinci dərəcəli ailə üzvləri və konsulluğumuzun əməkdaşları qatıla bilərlər. Qeyd edək ki, Fərid Hüseyn və Şəhriyar Hacızadə şeir festivalında iştirak üçün getdikləri İranda həbs olunublar. İran tərəfi uzun müddət azərbaycanlı şairlərin saxlanması xəbərini təsdiqləməyib. Daha sonra hər iki azərbaycanlının həbsxanada saxlandığı məlum olub. Azərbaycan Xarici İşlər Nazirliyi baş verən hadisəyə aydınlıq gətirilməsi tələbi ilə İrana bir neçə dəfə rəsmi nota verib. Lakin İran tərəfi bu notaları cavablandırmayıb. Tehranın kütləvi informasiya vasitələri soydaşlarımızın İran əleyhinə casusluq fəaliyyətində günahlandırıldığını iddia etsələr də, sonradan bu məlumat təsdiqlənməyib. İran tərəfi ilə əldə olunan razılaşmaya əsasən Azərbaycanın bu ölkədəki diplomatik nümayəndəliyinin əməkdaşları Fərid Hüseyn və Şəhriyar Hacızadə ilə görüşməyə müvəffəq olublar. Görüş zamanı hər iki şəxs onların İran ərazisinə qanunsuz şəkildə daxil olmaqda ittiham edildiklərini deyiblər. İran xarici işlər nazirinin müavini Arakçının Azərbaycana səfəri zamanı həbs olunan şairlərlə bağlı məsələnin müzakirə olunacağı gözlənilsə də, səfər iki dəfə təxirə salınıb. İran xarici işlər nazirinin digər müavini Hüseyn Əmir Abdullaxiyan ötən həftə Moskvada keçirdiyi mətbuat konfransında azərbaycanlı şairlərlə bağlı sualını cavablandırmaqdan boyun qaçırıb: "İranda azərbaycanlı şairlərin həbsindən xəbərim yoxdur. Məsələnin detalları barədə heç nə bilmirəm". Qeyd edək ki, hər iki soydaşımız Təbrizdə keçirilən şeir festivalında iştirak etmək üçün qonşu ölkəyə gedib və mayın 2-də həbs olunublar.



# Əsir əsgərin məktubu ailəsinə niyə çatdırılmır?

## *ŞƏHLA QƏHRƏMANOVA:* "QIZIL XAÇ" MƏKTUBLARINDA YALNIZ AİLƏYƏ AİD MƏLUMATLAR YER ALA BİLƏR"

Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) Ermənistanda saxlanılan azərbaycanlı əsirin məktubunun ailəsinə çatdırılmamasının səbəblərini açıqlayıb. Qurumun Bakı nümayəndəliyinin mətbuat katibi Şəhla Qəhrəmanova APA-nın sorğusuna cavab olaraq bildirib ki, "Qızıl Xaç" məktublarında yalnız ailəyə aid məlumatlar yer ala bilər: "Həmin məktublar bu kriteyaya cavab vermədiyindən onların çatdırılması mümkün deyil".

Qeyd edək ki,Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) Ermənistanda saxlanan azərbaycanlı hərbi əsirin məktublarını onun ailəsinə verməkdən imtina etməsi ilə bağlı bir neçə gün əvvəl məlumat yayılıb. Əsir Firuz Fərəcovun ailəsindən verilən məlumata görə, BQXK-nin Azərbaycan nümayəndəliyinin əməkdaşları F. Fərəcovun vəziyyətinin yaxşı olduğunu və əsirdən məktub gətirdiklərini bildirsələr də, həmin məktubu valideynlərinə verməkdən imtina ediblər. Əsirin ailəsi bu barədə aidiyyəti dövlət orqanlarına məlumat verib.

BQXK-nın nümayəndələri iyulun 31-də erməni əsirliyində olan F. Fərəcovla görüşüblər. Görüş zamanı əsirə ailəsindən bir "Qızıl Xaç" məktubu çatdırılıb, əsirdən isə iki "Qızıl Xaç" məktubu alınıb.

Xatırladaq ki, Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, 1992-ci il təvəllüdlü Fərəcov Firuz Mirzə oğlu qoşunların təmas xəttinin Tovuz rayonu istiqamətində azaraq erməni silahlı bölmələrinə əsir düşüb.

# Bu gün Bakıda 40 dərəcə isti olacaq

## QARŞIDAKI İKİ GÜNDƏ METEOHƏSSAS İNSANLAR ÜÇÜN ƏLVERİŞSİZ HAVA ŞƏRAİTİ PROQNOZLAŞDIRILIR

Bu gün Bakıda və Abşeron yarımadasında günəşli hava şəraiti hökm sürəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, şimal küləyi əsəcək, havanın temperaturu gecə 23-27, gündüz 36-38, yarımadanın bəzi yerlərində 40 dərəcə isti olacaq. Abşeronun çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 27-28, Buzovna, Mərdəkan, Şüvəlanda 28-29, Türkan, Hövsan, Şıx, Sahildə 29-30 dərəcə isti olacaq.

Azərbaycanın rayonlarında bu gün hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Şərq küləyi əsəcək, havanın temperaturu gecə 21-26, gündüz 35-39, bəzi yerlərdə 41, dağlarda gecə 13-18, gündüz 26-31 dərəcə isti olacaq. Tibbi-meteoroloji proqnoza əsasən, avqustun 7 və 8-də Abşeron yarımadasında zəif küləklərin üstünlüyü və arabir yaranan durğun hava şəraiti fonunda gündüz güclü isti temperatur diskomfortu meteohəssas insanlar üçün əlverişsizdir. Gündüz saatlarında uzun müddət açıq havada qalmaq məsləhət deyil.

# Amrahbank ASC-də məcmu kapitalın 50 000 000 manata qədər artırılması qərara alındı

AMRAHBANK

Amrahbank ASC-nin Səhmdarlarının 03.08.2012-ci il tarixdə keçirilmiş ümumi yığıncağında qərara alındı ki, Bankın məcmu kapitalı 22 028 570 manatdan 50 000 000 manata qədər artırılsın. Bununla əlaqədar müvafiq işlərin aparılmasına dair İdarə Heyətinə tapşırıqlar verildi.

Xatırladaq ki, 1993-cü ildə təsis edilmiş Amrahbank Azərbaycanın ilk və aparıcı banklarından biridir. Amrahbank həm fərdi, həm də korporativ müştərilərə bütün bank xidmət və məhsullarını, o cümlədən cari və depozit hesabları, hesablaşma-kassa və plastik kartlarla əməliyyatlar, yerli və beynəlxalq pul köçürmələri, istehlak və biznes kreditləri, sənədli əməliyyatlar, ticarətin maliyyələşdirilməsi və digər bank xidmətlərini təqdim edir.

2008-ci ildə "Amrahbank"ın strateji səhmdarı Bəhreyn Krallığında fəaliyyət göstərən Beynəlxalq İnvestisiya Bankı (49% səhm paketinə sahibi) ilə yaradılmış əməkdaşlıq əlaqələri, bank daxilində bir sıra sahələrin, o cümlədən korporativ idarəetmə, beynəlxalq əməkdaşlıq, məhsul və xidmətlərin çeşidi, keyfiyyəti və digər sahələrin inkişafında mühüm rol oynadı.

Hal- hazırda bankın baş ofisi, 19 filiali və 3 şöbəsi fəaliyyət göstərir. Bankın filiallar şəbəkəsi paytaxtla yanaşı respublikamızın Lənkəran, Tovuz, Şəmkir, Biləsuvar, Bərdə, Gəncə, Masallı kimi regionlarını əhatə edir.

# Əsgərin ölümünə görə dörd nəfər həbs olunub

Respublika Hərbi Prokurorluğu və Müdafiə Nazirliyi "N" saylı hərbi hissənin əsgərinin ölümü ilə bağlı birgə məlumat yayıb. APA-nın xəbərinə görə, birgə məlumatda bildirilir ki, "N" saylı hərbi hissəsinin əsgəri İsgəndərli Pərviz Cahan oğlunun valideynləri kütləvi informasiya vasitələrində və mətbuat konfransındakı çıxışlarında oğullarının xidmət etdiyi hərbi hissənin 4 zabiti tərəfindən döyülərək bədəninin müxtəlif yerlərinin sındırılması, onun qəsdən öldürülməsi və bundan sonra izi itirmək üçün asılması, əsgərlərin daxili orqanlarının satılması, eləcə də orduda digər qanunsuzluqların baş verməsi barədə söylədikləri həqiqəti əks etdirmir.

Müdafiə Nazirliyi və Respublika Hərbi Prokurorluğu bildirir ki, "N" saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətdə olmuş əsgər İsgəndərli Pərviz Cahan oğlunun 14 iyul 2012-ci il tarixdə özünü asaraq öldürməsi faktına görə həmin tarixdə Respublika Hərbi Prokurorluğu tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb və zəruri ilkin istintaq hərəkətləri aparılıb.

İstintaqla müəyyən edilib ki, "N" saylı hərbi hissənin bir neçə əsgəri tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını kobud surətdə pozaraq 2012-ci ilin iyul ayı ərzində əsgər Pərviz İsgəndərlini incidiblər. Nəticədə əsgər Pərviz İsgəndərli 14 iyul 2012-ci il tarixdə özünü asaraq öldürüb.

Bununla bağlı olaraq əsgərlər Şahin Xudiyevə, Vüsal İskəndərliyə, Vidadi Mustafayevə və Sabir Musayevə 23 iyul 2012-ci il tarixdə CM-nin 182.2.1, 332.3 və digər maddələrində nəzərdə tutulan ittihamlar elan edilib və hərbi məhkəmənin qərarı ilə barələrində həbs-qətimkan tədbiri seçilib.

Hazırda baş vermiş hadisənin bütün hallarının tam, hərtərəfli araşdırılması istiqamətində zəruri istintaq hərəkətlərinin icrası davam etdirilir. İstintaqın nəticəsindən asılı olaraq obyektiv və qanuni qərarın qəbul edilməsi və təqsirkar şəxslərin məhkəmə məsuliyyətinə cəlb edilməsi təmin ediləcək.

# Ermənilər bir neçə istiqamətdə atəşkəsi pozublar

Azərbaycan torpaqlarının bir hissəsini işğal altında saxlayan Ermənistan Silahlı Qüvvələri qoşunların təmas xəttində atəşkəs rejimini pozmaqda davam edir.Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, erməni silahlı bölmələri srağagün və dünən gecə Ermənistanın İcevan rayonunun ərazisindəki adsız yüksəkliklərdə, işğal olunmuş Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı, Goranboy rayonunun Gülüstan, Ağdam rayonunun Şıxlar, Qaraqaşlı kəndləri yaxınlığında və Cəbrayıl rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən atəşkəs rejimini pozublar. Düşmən cavab atəşi ilə susdurulub.

# Daha 20 min 599 nəfər Yeni Azərbaycan Partiyasına üzv qəbul olunub

## YAP ÜZVLƏRİNİN SAYI 575 MİN 591 NƏFƏRƏ ÇATIB

Bu ilin ilk yarısında hakim Yeni Azərbaycan Partiyasının (YAP) üzvlərinin sayı 575.591 nəfər olub. Bu barədə APA-ya partiyanın mətbuat xidmətindən bildirilib. 1 iyul 2012-ci ilə olan məlumata görə, bu ilin ilk altı ayı ərzində YAP-a üzv olanların sayı 20.559 nəfər olub. Bu göstərici isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 15 faiz çoxdur. Müvafiq dövrdə partiya sıralarına qəbul olunanların 11 mindən çoxu (ötən ilin müvafiq dövründə bu rəqəm 9924 olub), yəni 53,5 faizi gənclərdir.

# Sabirabadda zəlzələ oldu

Sabirabad rayonunda zəlzələ baş verib. Azərbaycan Milli Elmlər Akademiyası Seysmoloji Xidmət Mərkəsindən APA-ya verilən məlumata görə, zəlzələ dünən yerli vaxtla 11:33-də Şirvan şəhərindən 20 km şimal-qərbdə, Sabirabad rayonu ərazisində qeydə alınıb. 3,3 maqnituda yerli təkanlar hiss olunmayıb.

**ELAN**

Dünyaşöhrətli professor, doktor **Cavad Heyət** Bakıda.
Hər gün saat 10.00-dan 13.00-a qədər xəstələrini qəbul edir.
**Ünvan: Nizami küçəsi 149, 2-ci blok, 2-ci mərtəbə, mənzil 27 (həyət qapısından girmək lazımdır).**
**Telefon: (012) 493-98-74, (050) 395-18-54**



# Vergiləri ödəməkdən yayınmaq istəyən vergi ödəyicilərinin sayı əhəmiyyətli şəkildə azalıb

## Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahir Məmmədxanovun "Trend" informasiya agentliyinə müsahibəsi

***— Azərbaycanın vergi sistemində son illər həm texnoloji modernləşmə sahəsində, həm də vergi inzibatçılığı sahəsində əsaslı islahatlar aparılıb. Bu islahatlar vergi xidmətinin bütün həlqələrində ciddi pozitiv dəyişikliklərə gətirib. Bəs görülən işlər vergi borclarının idarə olunması sahəsinə necə təsir göstərib?***

— Vergi orqanlarında idarəetmə sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması, vergilərin könüllü ödənilməsi sisteminin inkişaf etdirilməsi, vergi ödəyicilərinin hüquqlarının etibarlı qorunmasının təmin edilməsi, vergidən yayınma halları ilə mübarizənin gücləndirilməsi və vergi borclarının yaranmasının qarşısının alınması istiqamətində əhəmiyyətli işlər görülüb. Artıq bir neçə ildir ki, Vergilər Nazirliyinin rəhbərliyinin, şəxsən cənab Fazil Məmmədovun təşəbbüsü ilə Nazirlikdə informasiya kommunikasiya texnologiyalarının geniş tətbiqi üçün işlər aparılır. Bu, vergi borclarının alınması sahəsində işlərin də səmərəliliyinin artırılmasına şərait yaratmışdır.




Vergi sisteminin səmərəliliyi barədə danışarkən, ilk növbədə, ölkədə vergi ödəyicilərinin öz vergi öhdəliklərini nə dərəcədə intizamla ödədiyi və vergi öhdəliklərinin yerinə yetirilməsi prosesinin nə dərəcədə sadə olmasının mühüm əhəmiyyəti vardır. Könüllü əməletmə göstəricisi vergi sisteminin nə dərəcədə səmərəli işlədiyini göstərən mühüm amillərdəndir.

Əgər biz bu göstəriciyə nəzər yetirsək, 2012-ci ilin birinci yarımilliyində vergi ödəyicilərinin təxminən 72,2 faizi büdcə qarşısındakı vergi öhdəliklərini vaxtında icra etmişlər. Bu göstərici keçən ilin müvafiq dövrü ilə müqayisədə 4,9 faiz artıb. Bu zaman vergi bəyannamələrini vaxtında təqdim edən vergi ödəyicilərinin sayı 90 faizdən çoxdur.

Buna baxmayaraq, bəzən vergi ödəyiciləri öz öhdəliklərini vergi qanunvericiliyi ilə müəyyən edilmiş müddətdə dövlət büdcəsinə ödəmirlər ki, bu da borclanma hallarının yaranmasına gətirib çıxarır. Əgər vergi xidməti müvafiq informasiya sisteminə malik deyilsə, borcların çevik və səmərəli idarə edilməsindən söhbət belə gedə bilməz. Azərbaycanın vergi sistemi bu mənada geniş texnoloji imkanlara malikdir. Əlaqəli informasiya bazası, elektron məlumat mübadiləsi bizə borcların yaranma halları barədə dərhal məlumatlar əldə etməyə və daha çevik tədbirlərin həyata keçirilməsinə imkan verir. Elektron məlumat bazalarının mövcudluğu borclu vergi ödəyici haqqında müfəssəl məlumat, o cümlədən aktivləri, öhdəlikləri, kapitalı, hesablamaları, dövlət büdcəsinə ödənişləri barədə göstəriciləri əldə etməyə və bununla onun likvidlik dərəcəsini qiymətləndirməyə imkan verir ki, bu da borcların səmərəli idarə edilməsi üçün əsas amillərdəndir.

Borcların aradan qaldırılması üçün çevik idarəetmə sisteminin qurulması bizə borcların yaranmasının qarşısını almağa yardım edir. Məsələn, cari ilin 1-ci yarımilliyi ərzində yaranmış 86478 borclu vergi ödəyicisi üzrə aparılmış çevik tədbirlər nəticəsində onlardan 90,1 faizinin borcları tamamilə ləğv edilib.

***— Vergi borclarının alınması üçün hansı təsir vasitələrindən istifadə edilir? Sizin fikrinizcə, onlar nə dərəcədə səmərəlidir?***

— Vergi qanunvericiliyi ilə müəyyən edilmiş vergilər vergi ödəyiciləri tərəfindən tam və vaxtında dövlət büdcəsinə ödənilməlidir. Bu şərtlərin gözlənilməməsi vergi ödəyicilərinin dövlət büdcəsi qarşısında borcların yaranmasına səbəb olur ki, bu da vergi yığımları üzrə kəsirlərin yaranmasına və nəticədə isə dövlətin maliyyə resurslarının məhdudlaşmasına təsir göstərə bilir.

Vergilər Nazirliyi vergi borclarının artımının qarşısının alınması və qısa zaman ərzində aradan qaldırılması üçün dərhal borclu vergi ödəyicisi ilə tədbirlərə başlayır. İlk növbədə vergi ödəyicisinə hesablanmış vergilərin, faizlərin və tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsinə dair bildiriş göndərilir. Vergi öhdəlikləri icra edilmədikdə həmin vergi ödəyicilərinə qarşı borcun alınması istiqamətində məcburi tədbirlər görülür, yəni borclu vergi ödəyicisinin bank hesablarına icra sənədi olan sərəncamlar qoyulur və onun əmlakın siyahıya alınması həyata keçirilir.

Bundan başqa, ötən ildən başlayaraq vergilər nazirinin müvafiq əmri ilə vergi borclarının alınması strukturlarına operativ vergi nəzarətinin həyata keçirilməsi ilə bağlı səlahiyyətlər verilib. Bu həmin tədbirlərin daha sürətli, çevik, insan və vaxt resurslarından səmərəli istifadə edilməsi ilə aparılmasına imkan vermiş, lüzumsuz yazışmaların qarşısının alınmasına, vergi borclarının alınmasına, eləcə də vergi uçotunun və vergi nəzarətinin səmərəliliyinin təmin edilməsinə gətirib. Yeni səlahiyyətlər borclu vergi ödəyicilərində nəzarət tədbirlərinin gücləndirilməsinə və hesablanmış vergilərin ödənilməsinin təmin edilməsinə imkan yaradıb.

2012-ci ilin 1-ci yarımilliyi ərzində vergi orqanları tərəfindən borclu vergi ödəyicilərinin dövlət büdcəsinə yaranmış borclarının ödənilməsinin təmin edilməsi məqsədi ilə əmlaklarının siyahıya alınması barədə 22 816 sayda qərar açılmışdır və bunlardan 94,1 faiz borclar ləğv edildiyinə görə bağlanılıb.

***— Sahir müəllim, bir müddət öncə Vergilər Nazirliyi borclu vergi ödəyicilərinin ölkədən getmək hüququnun məhdudlaşdırılması ilə bağlı məhkəmələrə müraciət etmişdi. Bu kimi məcburiyyət tədbirləri davam edirmi?***

— Əlbəttə, vergi orqanları təkcə ənənəvi tədbirlərlə kifayətlənmirlər. Biz borcların alınması istiqamətində qanunvericiliyin imkan verdiyi səlahiyyətlər çərçivəsində digər vasitələrdən də istifadə edirik. Məsələn, aparılan araşdırmalar nəticəsində mülkiyyətində heç bir daşınan və ya daşınmaz əmlakı müəyyən edilməmiş, lakin hüquqi şəxslərdə təsisçi və ya payçı kimi çıxış edən borclu fiziki şəxslər müəyyən edildiyi hallarda, onların borclarının hüquqi şəxslərindəki paylarından tutulması istiqamətində tədbirlərin həyata keçirilməsinə başlanılıb.

Mülki qanunvericilik ödəyicinin şəxsi borcları üzrə tutmanın onun başqa əmlakının borclarını ödəməyə kifayət etmədikdə, hüquqi şəxsdəki şərikli kapitalındakı payına yönəldilməsi imkanları nəzərdə tutur. Buna görə də hüquqi şəxslərdə təsisçi (payçı) kimi çıxış etmələri müəyyən edilən fiziki şəxslərin borclarının onların hüquqi şəxslərdəki paylarından tutulması məqsədilə Vergilər Nazirliyi 15 fiziki şəxsə qarşı məhkəmələrdə iddialar qaldırılıb. Artıq müvafiq iddialardan 2 iş üzrə borc məbləğinin hüquqi şəxsin əmlakındakı payına yönəldilməsi barədə qətnamə çıxarılıb, 2 iş üzrə isə borc məbləği ödənildiyindən müvafiq məhkəmə qərardadı qəbul olunub. 38 borclu fiziki şəxslərlə aparılan müvafiq tədbirlər nəticəsində isə borcların tam olaraq dövlət büdcəsinə alınması təmin edilib.

Bununla yanaşı, hazırda sahibkarlıq fəaliyyətlərini dayandıran, lakin dövlət büdcəsi qarşısında öhdəlikləri tam icra etməyən fiziki şəxslərin borclarının onların mülkiyyətində olan nəqliyyat vasitələrinə yönəldilməsi prosesi də surətləndirilib. Belə ki, ötən dövr ərzində 15 vergi ödəyicisinin nəqliyyat vasitələrinin üzərinə həbs qoyulması məqsədilə aidiyyəti strukturlara müraciət edilib, 921 borclu vergi ödəyicisinin 674,6 min manat məbləğində borc məbləğinin dövlət büdcəsinə ödənilməsi təmin edilib.

Bundan başqa, tərəfimizdən vergidən yayınma faktı ilə əlaqədar barəsində hökm çıxarılmış şəxslərin tərkibi də mütəmadi olaraq araşdırılır. Belə ki, aparılmış araşdırma ilə vergidən yayınma faktı ilə əlaqədar barəsində hökm çıxarılmış hüquqi şəxslərin rəhbərlərindən azadlıqdan məhrum etmə cəzasının müddəti başa çatmış və vergi orqanında ayrıca fiziki şəxs kimi uçota duraraq yenidən sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu, eləcə də Vergilər Nazirliyinin baza məlumatlarına əsasən aktivləri müəyyən edilən şəxslər barədə də tədbirlərin görülməsinə başlanılıb.

Və nəhayət, qeyd etdiyiniz məsələ ilə bağlı, ötən dövr ərzində vergi orqanları tərəfindən 800-dək borclu vergi ödəyicisinin ölkədən getmək hüququnun məhdudlaşdırılması barədə müvafiq icra şöbələrinə müraciətlər edilib. Həmin vəsatətlər nəticəsində müvafiq əsaslandırılmış təqdimatlar hazırlanmış, o cümlədən 33 vergi ödəyicisinin ölkədən getmə hüququ müvəqqəti olaraq məhdudlaşdırılıb. Görülmüş tədbirlər nəticəsində 7 vergi ödəyicisi vergi borcunu ödədiyinə görə barələrində icraatlar dayandırılıb.

Göründüyü kimi, vergi borcunun alınması prosesində çoxşaxəli təsir imkanlarından istifadə olunur. Vergi borclarının aradan qaldırılması istiqamətində aparılan çevik menecment cari ilin birinci yarımilliyində borc məbləğlərinə təsir etmişdir. Belə ki ümumi borc məbləği cari ilin 1 yanvar tarixi ilə müqayisədə 8,3 faiz, ötən ilin müvafiq dövrü ilə müqayisədə isə 17,8 faiz azalıbr. Hesab edirəm ki, bu göstəricilər vergi borclarının idarəolunması sahəsində aparılan səmərəli menecmentə dəlalət edir.

***— Vergi borcları daha çox hansı səbəblərdən yaranır? Vergi borcunun yaranmaması üçün Vergilər Nazirliyi tərəfindən hansı qabaqlayıcı addımlar atılır?***

— Vergi ödəyicilərinin büdcə qarşısındakı öhdəliklərinin tam və vaxtında icra etməmələrinin səbəbləri, yəni borcların yaranma səbəbləri müxtəlif ola bilər. Burada öhdəliklərin icra edilməməsi, müvəqqəti maliyyə çətinlikləri və ya büdcəyə ödənilməli olan vəsaitlərin digər istiqamətlərə, məsələn dövriyyə vəsaitlərinin artırılmasına yönəldilməsi ilə müşayiət oluna bilər.

Bəzən borcların yaranmasının obyektiv səbəbləri də olur. Məsələn, mövcud qanunvericilik kəndli-fermer təsərrüfatlarının fəaliyyəti, eləcə də dövlətdən sosial yardım alan vətəndaşlarımız üçün vergi orqanlarında qeydiyyatdan keçməyi məcburi hesab edir. Azərbaycanda kənd təsərrüfatının vergidən azad edildiyinə görə, bir çox hallarda fermerlər vergi ödəmədiklərinə görə, vergi orqanlarına müvafiq bəyannamələri də təqdim etmirlər. Halbuki, qanunvericilik vergi güzəştləri olduğu halda belə, vergi bəyannamələrinin təqdim edilməsini tələb edir. Bu eləcə də sosial yardım alan vətəndaşlarımıza aiddir. Vergi orqanlarında qeydiyyatdan keçmiş hər bir şəxs qanunvericiliklə müəyyən edilmiş dövrlərdə vergi öhdəliklərinin yaranıb-yaranmamasından asılı olmayaraq bəyannamələrini təqdim etməyə borcludur. Bəyannamə təqdim edilmədiyi halda, bu maliyyə sanksiyalarının tətbiq edilməsinə səbəb olur ki, bu da son nəticədə həmin ödəyicilərin borc öhdəliklərinin yaranmasına gətirir.

Bu baxımdan, biz bu sahədə məlumatlandırma və maarifləndirmə işlərindən geniş istifadə edirik. Hesab edirəm ki, əslində məcburi tədbirlərə keçməzdən əvvəl vergi ödəyicilərinin öhdəliklərini vaxtında yerinə yetirilməsi baxımından məlumatlandırılması kimi proqressiv iş metodları daha səmərəli nəticələr əldə etməyə imkan verir. Ümumiyyətlə nəzərinizə çatdırım ki, dünya təcrübəsi ictimai təsir vasitələrindən istifadə edilməsinin səmərəli olduğunu göstərir. Biz bu sahədə hələ ilk addımları atırıq. Bu ilin martın sonunda ilk dəfə "2012-ci ildə vergi borcu olmadan" adı altında ictimai aksiya keçirilmişdir. Bu aksiya zamanı vergi ödəyicilərinə vergi bəyannamələrinin təqdim edilməsi və ödəmələrin vaxtında həyata keçirilməsi haqqında bildirişlər paylanmış, borclu vergi ödəyicilərinin birbaşa təsərrüfat subyektlərinə getməklə onlara borclarının olduğu barədə məlumatlar çatdırılmışdır. Əlbəttə, bu da təsir vasitələrindən biridir. Biz gələcəkdə bu kimi aksiyaların mütəmadi olaraq keçirilməsini planlaşdırırıq.

Nəhayət qeyd etmək istərdim ki, Cinayət Məcəlləsinin 213-cü maddəsinə edilmiş son dəyişikliklərdən sonra vergiləri ödəməkdən yayınma faktı cinayət tərkibi yaradır. Bu vergidən yayınma hallarının məsuliyyət dərəcəsini artırıb və sözsüz ki, vergi ödəyicilərinin vergilərdən yayınmaq istəyi və cəhdlərinin azalmasına yönəlmiş təsir vasitəsidir. Hazırda vergidən yayınmaq niyyətində olan vergi ödəyicilərinin sayı kifayət qədər azalıb.

# "Azərbaycanın bütün məktəblərində "Elektron məktəb" konsepsiyası tətbiq edilə bilər"

"Elektron məktəb" layihəsi çərçivəsində tədris müəssisələrində tətbiq olunan texnologiyalar ölkədə Milli Təhsil Modelini formalaşdırmağa xidmət edir. Təhsil Nazirliyinin Təhsil sisteminin informasiyalaşdırılması idarəsinin rəisi Samir Məmmədovun sözlərinə görə, bu pilot layihə çərçivəsində əldə edilən təcrübə əsasında Azərbaycanın bütün məktəblərində "Elektron məktəb" konsepsiyasını tətbiq etmək mümkündür: "Bu isə Azərbaycanda aparıcı ölkələr səviyyəsinə uyğun Milli Təhsil Modelinin tam bərqərar olması deməkdir". S.Məmmədov deyir ki, layihəyə indiyədək 39 təhsil müəssisəsi cəlb olunub və onlardan 32-si ümumtəhsil məktəbləridir: "Hazırda layihədə Bakının, Sumqayıtın, Lənkəranın, Gəncənin, Şamaxının, İsmayıllının, Şirvanın, Qubanın və Ağdaşın məktəbləri iştirak edir". S.Məmmədov bildirib ki, "Elektron məktəb" layihəsində iştirak edən məktəblər Azərbaycan təhsil şəbəkəsinə optik kabellər vasitəsilə qoşulub, onlarda zəruri şəbəkə avadanlığı və proqram təminatı istifadə edilib. Layihədə iştirak edən məktəblərdə bir sıra həllər tətbiq olunur ki, bunun nəticəsində həmin məktəblərdə elektron jurnalların, elektron cədvəllərin, elektron gündəliklərin və SMS vasitəsilə şagirdlərin davamiyyəti və dərslərdə iştirakı haqda valideynlərin məlumatlandırması, elektron tədris resurslarının istifadəsi mümkün olub: "Bununla yanaşı, pilot məktəblərdə "bir şagird — bir kompyuter" layihəsi də tətbiq edilir. Təhsil Nazirliyinin və "Intel" korporasiyasının birgə təşəbbüsü olan "bir şagird — bir kompüter" layihəsi çərçivəsində məktəblilərə həm dərsdə, həm də evdə istifadə üçün netbuklar verilib. Bu tədrisdə informasiya texnologiyalarının tətbiqini daha da effektiv edir". S.Məmmədov vurğulayıb ki, orta təhsil sistemində elektron dərsliklərə keçidin də tədricən təmin olunması məqsədəuyğundur. Artıq bir sıra aparıcı dövlətlərdə bu keçid müşahidə olunmaqdadır — təhsil sistemində "ağıllı" kitabların, şagirdlərin iştirakını və araşdırmaçılığını sövq edən elektron təhsil resursların istifadəsi genişlənməkdədir. Şagirdin yaradıcılığına imkan yaradan interaktiv elektron vasitələrin yaradılması, saxlanılması və yayılması bulud ("cloud") texnologiyaları vasitəsilə daha səmərəli və əlçatımlı olur. Bununla da fərdiləşmiş tədris üçün zəruri şərait yaranır və fərdi təhsil netbuk və planşet kompüterə ehtiyac artır: "Azərbaycanda da tədricən fərdi kompüterlər vasitəsilə elektron dərsliklərdən istifadə ölkə miqyasında bulud texnologiyalara keçidi tezləşdirəcək. Belə ki, şagirdlər tədris üçün zəruri materialları və dərslikləri Məlumat və Resurs Mərkəzinin serverlərindən, yəni təhsil buludundan istifadə etməklə fərdi təhsil alətinə yükləyə və təhsil nəticələrini keyfiyyətli dərəcədə təkmilləşdirə biləcək. Burada "ağıllı" məzmunun yaradılması və ya yerliləşdirilməsi üçün lazım olan infrastrukturun — Data Mərkəzin, Elektron resurs üzrə ixtisaslaşmış yerli şirkətlər, yerli ekspertlərin və sürətli internet bağlantısının mövcudluğu həlledicidir".

**S.QARAYEVA**

# Turizm İnstitutunun qəbul planında dəyişiklik edilib

Azərbaycan Turizm İnstitutunun (ATİ) 2012-2013-cü il üçün qəbul planında dəyişiklik edilib. İnstitutun mətbuat xidmətindən verilən məlumata görə, Nazirlər Kabinetinin qərarı ilə ayrı-ayrı ixtisaslar üzrə tələbə qəbulu planı artırılıb. Bu, əsasən turizm və otelçilik ixtisasına aiddir. Bu ixtisasa əlavə 50 nəfər tələbə qəbulu nəzərdə tutulur. Menecment və muzeyşünaslıq ixtisaslarına 6, marketinq ixtisasına isə 4 nəfər əlavə tələbə qəbulunun həyata keçirilməsi ilə bağlı qərar qəbul olunub. Adları çəkilən ixtisaslar üzrə qəbul planının artırılmasının səbəbi həmin sahələr üzrə ixtisaslı kadrlara tələbatın çox olması ilə bağlıdır. İnstitutun məlumatında bildirilib ki, ATİ-də təhsil aşağıdakı 11 ixtisas turizm və otelçilik, menecment, marketinq, muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması, regionşünaslıq (Qafqaz regionu, Azərbaycan üzrə), bələdçi-tərcüməçi, macəra, ekstrimal və dağ turizmi, nəqliyyat servisi (nəqliyyat növləri üzrə xidmətlərin göstərilməsi), sosial iş, beynəlxalq münasibətlər, qida mühəndisliyi üzrə aparılır. Bir təhsil müəssisəsi kimi missiyası ölkədə turizmin inkişafı üçün mütəxəssislərin hazırlanması, tələbələrinin vətəndaş kimi yetişməsi olan ATİ fəaliyyət göstərdiyi qısa zaman ərzində bir çox uğurlara imza atıb. Azərbaycan Turizm İnstitutu yarandığı gündən tədrisin təşkilini Boloniya prosesi standartları əsasında qurulub.

**S.QARAYEVA**

# II ixtisas qrupu üzrə qəbul imtahanlarının nəticələri açıqlanıb

Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) ali məktəblərin II ixtisas qrupu üzrə qəbul imtahanlarının nəticələrini açıqlayıb.

Komissiyanın mətbuat xidmətindən verilən xəbərə görə, imtahanın nəticələri TQDK-nın rəsmi internet saytında yerləşdirilib. Abituriyentlər imtahanın nəticələri barədə məlumatı həmçinin mobil telefonla 7727 nömrəsinə iş nömrələrini göndərməklə öyrənə bilərlər. TQDK-dan bildirilib ki, II qrup üzrə ixtisas seçimində ümumi balı 150-dən, ixtiyari bir imtahan fənni istisna olmaqla qalan hər bir imtahan fənni üzrə ayrılıqda topladığı nisbi balı 10-dan az olmayan abituriyentlər iştirak edə bilərlər. Ümumi balı 300 və daha çox olan abituriyentlərin ixtisas seçiminə buraxılmaları üçün onların fənlər üzrə cavablarına nisbi bal məhdudiyyəti tətbiq olunmur. Dövlət sifarişi əsasında ayrılmış yerlərin ixtisas seçimində ümumi balı 350-dən və hər bir imtahan fənni üzrə ayrılıqda topladığı nisbi balı 10-dan az olmayan abituriyentlər iştirak edə bilərlər. II ixtisas qrupu üzrə imtahanda iştirak etmək üçün sənəd vermiş 22867 abituriyentlərdən 552 nəfəri imtahanda iştirak etməyib. İmtahanda iştirak edən abituriyentlərdən 22 nəfər qaydalara zidd hərəkətlərə yol verdiklərinə görə mtahandan xaric olunub və onların nəticələri ləğv edilib.

Test imtahanının nəticəsinə əsasən 11929 abituriyent müsabiqədə iştirak etmək hüququ qazanıb. 2 nəfər maksimal nəticə —700 bal toplayıb. İxtisas seçimi avqustun 7-dən 16-dək internet vasitəsilə aparılacaq. Qəbul aparılan ixtisasların siyahısı isə "Abituriyent" jurnalının 3-cü sayında dərc olunub.

**S.QARAYEVA**

# "Bələdiyyələrin fəaliyyətində şəffaflığın təmin olunması" mövzusunda regional seminar-müşavirə keçirilib

Lənkəran şəhərində Auditorlar Palatasının, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin və Lənkəran Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Bələdiyyələrin fəaliyyətində şəffaflığın təmin olunması" mövzusunda regional seminar-müşavirə keçirilib. Auditorlar Palatasından verilən məlumata görə, Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı və Cəlilabad rayonlarının yerli icra hakimiyyətləri strukturlarının, müvafiq iqtisadi qurumlarının nümayəndələrinin və bələdiyyələrin rəhbərlərinin qatıldıqları seminar-müşavirədə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov açılış mərasimində Prezident İlham Əliyevin iştirak etdiyi Heydər Əliyev Mərkəzində bu gün respublika əhəmiyyətli ilk tədbirin keçirildiyini diqqətə çatdırıb.

Qeyd edilib ki, rayonda aparılan quruculuq işlərində, yerli əhəmiyyətli sosial məsələlərin və ekoloji problemlərin həllində yerli özünüidarəetmə orqanları fəal iştirak edirlər.

Auditorlar Palatasının sədri, professor Vahid Novruzov bildirib ki, bu tədbir ölkə başçısının Sərəncamı ilə təsdiq edilmiş "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" və onun həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planına uyğun olaraq keçirilir.

Maliyyə nəzarəti və şəffaflıq sahəsində Azərbaycanda möhkəm hüquqi bazanın yaradıldığını vurğulayan V.Novruzov bu sahədə hələ də bir sıra problemlərin, yeni qurum olmaq etibarı ilə yerli özünüidarəetmə orqanlarında audit işinin tətbiqi sahəsində həllini gözləyən məsələlərin olduğunu diqqətə çatdırıb. Audit təkcə yoxlama, nəzarət deyil, eləcə də, bələdiyyələrə vergi uçotunun aparılması, biznes-planın tərtib edilməsi, bələdiyyə əmlakının qiymətləndirilməsi məsələlərində xidmət edən qurumdur.

Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi Mehdi Səlimzadə bildirib ki, yerli özünüidarəetmə orqanı olan bələdiyyələr demokratik cəmiyyətin formalaşmasında mühüm rol oynayırlar. Yerli özünüidarəetmə orqanlarına cəmiyyətin marağının artırılmasında maarifləndirmə işinin düzgün təşkilinin, qarşılıqlı münasibətlərin tənzimlənməsinin, bələdiyyələrin hüquqi təminatının yüksəldilməsinin əhəmiyyətini, maliyyə-təsərrüfat işlərinin düzgün qurulmasında audit xidmətlərinin keyfiyyətli keçirilməsinin rolunu diqqətə çatdıran M.Səlimzadə bəzi bələdiyyələrin fəaliyyətində qanunsuzluqlara yol verildiyini, qanun pozuntuları ilə bağlı 17 bələdiyyənin işinin Respublika Prokurorluğuna təqdim edildiyini diqqətə çatdırıb.

Tədbirdə Auditorlar Palatasının sədri, professor Vahid Novruzovun və Lənkəran Dövlət Universitetinin rektoru, professor Asəf İsgəndərovun iştirakı ilə qarşılıqlı əməkdaşlıq sazişi imzalanıb.

**BƏXTİYAR**

# "Yeni Üfüq" xüsusi qayğıya eytiyacı olan uşaqları ziyarət edib

"Yeni Üfüq" Mənəvi İrsin Təbliği İctimai Birliyi ötən həftə Ramazan ayı ilə bağlı başladığı tədbirlər çərçivəsində Buzovna qəsəbəsindəki Professor Gindes adına Respublika Uşaq və Yeniyetmələr üçün Vərəm Xəstəlikləri Sanatoriyası və Suraxanı rayonunda yerləşən 7 saylı Xüsusi İnternat Məktəbində xeyriyyə aksiyası keçirib. "Yeni Üfüq" Mənəvi İrsin Təbliği İctimai Birliyinin sədri Sevinc Əzimbəyli "525"ə açıqlamasında bildirib ki, aksiyanın əsas məqsədi mənəvi dəstəyə ehtiyacı olan uşaqları sevindirmək olub. Onun sözlərinə görə, Azərbaycan dövləti belə mərkəzlərə hər zaman xüsusi diqqət və qayğı ilə yanaşıb: "Amma hesab edirəm ki, hər şeyi dövlətin üzərinə atmaq doğru deyil. Biz bu aksiyaları başlamaqla Azərbaycanda olan xeyriyyəçilik ənənəsinə töhvə vermək niyyətindəyik. Çünki bu gün ölkəmizdə xeyli sayda zəngin insanlar var. Ən azından onlar bu şəraiti yaradan Azərbaycan dövlətinə kömək məqsədilə xeyriyyə işlərinə qoşulmalıdırlar". S.Əzimbəyli vurğulayıb ki, xüsusi qayğıya ehtiyacı olan uşaqlara dəstək olmaq məqsədilə təmsil etdiyi təşkilatın ailə üzvləri ziyarətə etdikləri mərkəzlərdə olublar.

**BƏXTİYAR**

# "Yaşadığımız ev toyuq hinindən fərqlənmir"

## AĞDAM RAYONUNDAN OLAN MƏCBURİ KÖÇKÜN EV PROBLEMİ İLƏ BAĞLI ÖLKƏ RƏHBƏRLİYİNƏ MÜRACİƏT EDİB

Ağdam rayonundan məcburi köçkün Elbrus Mirturabov qarşılaşdığı problemlə əlaqədar redaksiyamıza üz tutub. Söhbət zamanı E.Mirturabov bildirib ki, Ağdam rayonu 1993-cü ildə işğal olunduqdan sonra o da digər həmyerliləri kimi öz elindən-obasından didərgin düşüb. Onun sözlərinə görə, ailəsi ilə birlikdə məcburi köçkün kimi Sumqayıt şəhərinə pənah gətiriblər: "Sumqayıta gələndə digər məcburi köçkünlər kimi yataqxanada və başqa yerdə məskunlaşmadıq. Ailəmizlə birgə Sumqayıt şəhərində Qurd dərəsi bağları massivində muzdla işlədiyim yerdə yaşamağa başladıq. Ötən 19 ildə çox əziyyətlər çəkdik. Bu bağlar massivində demək olar ki, 16 dəfə yaşayış yerimizi dəyişməli olduq. Lakin indi yaşayışımız acınacaqlı vəziyyətə düşüb".

E.Mirturabovun sözlərinə görə, ailələri 6 nəfərdən ibarətdir və yalnız kiçik qardaşı işləyir: "Özüm ikinci qrup əliləm və cəmi 42 manat təqaüd alıram. Anam da pensiyaçıdır. Ona görə də heç kirayə çıxmağa imkanımız yoxdur. Bəzən özüm bu cür həyatdan bezirəm. Çünki vaxtilə mən işləmək istəyəndə həkimə müraciət etdim və onun mənə yazdığı dərmanları alıb, müalicəmi davam etdirə bilmədim. Məskunlaşdığımız hər bir evdə həyat-bacada görüləcək işlər qurtarandan sonra ev yiyəsi bizi yaşadığımız komadan çıxarır. Hazırda yaşadığımız ev toyuq hinindən fərqlənmir".

E.Mirturabov bildirib ki, qarşılaşdığı ev problemi ilə əlaqədar Sumqayıt şəhər evlər idarəsinə müraciət edib. Özünün dediyinə görə, eləcə də Sumqayıt şəhər icra başçısı Eldar Əzizova da məktub yazıb: "Bundan başqa Prezident İlham Əliyevə və Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban Əliyevaya da müraciət etmişəm. Açığını deyim ki, müraciətlərə hələ bir cavab almamışam. Amma cənab Prezidentə və onun xanımına etdiyim müraciətə çox ümidliyəm.

Əvvəl müraciət etdiyim Sumqayıt evlər idarəsinə indiyədək dəfələrlə getmişəm. Hər dəfə də bir söz deyiblər. Gah deyirlər ki, səni çağıracağıq, sonra deyiblər ki, məktubunu nazirə göndərəcəyik, nə bilim məhkəməyə göndərəcəyik. Bir sözlə mənə konkret söz deyən olmayıb. Axır məqamda evlər idarəsindən mənə cavabı "gözlə" oldu. Çox maraqlıdır ki, həmin idarəyə gedəndə etdiyim müraciətin kağızı iki gündən də sonra orada idi, on gündən sonra da. Qeyri-rəsmi şəkildə isə bildirdilər ki, məcburi köçkünlər üçün evlər tikiləndə sən də alacaqsan. Axı nə vaxta kimi onun-bunun qapısında söz götürə-götürə yaşamalı olacağıq?!"

**BƏXTİYAR**

# "Unibank" analoqu olmayan kreditlərin verilməsinə başladı

"Unibank" ölkədə güzəşt müddətinə görə analoqu olmayan Nağd kreditlərin verilməsinə başlayıb. Bankın təklif etdiyi yeni kredit məhsulunun əsas üstünlüyü müştəri tərəfindən ilk 6 ay ərzində yalnız faiz borclarının ödənilməsindədir.

Bank xidmətləri bazarında pərakəndə kreditlərdə ilk dəfə tətbiq olunan yarımillik güzəştli dövr, kredit öhdəliklərinin yerinə yetirilməsində tam rahatlıq yaradır. Bu növ nağd kreditlərin maksimal müddəti 24 aydan 30 ayadək artırılıb, bu da müştərilərin aylıq ödənişlərini əhəmiyyətli dərəcədə azaltmağa imkan verir.Analoqu olmayan və istənilən istehlak ehtiyaclara ayrılan kreditlərin məbləği borcalanın gəlirlərindən asılı olaraq 300 AZN-dən 5000 AZN-ə qədər təşkil edə bilər. Bu zamanmüştərinin minimal əmək haqqına tələblər yoxdur. Qeyd edək ki,




2500 manata qədər kreditlər girovsuz və zaminsiz verilir, "Unibank"-da müsbət kredit tarixçəsi olanlara isə daha yüksək məbləğdə də zaminsiz təqdim olunur.

"İndi al, gələn il ödə" şuarı altında tətbiq olunan kreditlərin faiz dərəcəsi dəyişilməz qalıb və illik 30%-dən başlayır. Analoqu olmayan nağd istehlak kreditinin əsas məbləği güzəştli müddət bitdikdən (6 ay) sonra bərabər hissələrlə ödənilir. Həmçinin kreditin istənilən zaman, əlavə komissiya haqqı tutulmadan, vaxtından əvvəl ödənilməsi də nəzərdə tutulub.

## *Zahid Oruc:* "Azərbaycanın Xəzər sahilində radar yerləşdirmək niyyəti onun təhlükəsizliyini gücləndirəcək"



"Xəzərin Qara dənizdə Rusiya ilə NATO arasında yaranan vəziyyətə bənzər qarşıdurma dənizinə çevrilmə ehtimalı var. Xəzərdə təkrar belə bir qarşıdurma bu dənizin statusunun müəyyən edilməsi məsələsində İran və Türkmənistanın mövqeyinə bir dəstək göstərmiş olacaq. Ona görə, Azərbaycan belə ziddiyyətlərin mövcudluğu fonunda ABŞ-la arasında olan yaxşı münasibətlərdən istifadə edərək öz təhlükəsizliyini təmin etmək üçün addımlar atır".

Belə bir açıqlama ilə Milli Məclisin Təhlükəsizlik və müdafiə komitəsinin üzvü Zahid Oruc ABŞ-ın Dövlət Departamentinin Azərbaycanın Xəzər sahilində 7 radar yerləşdirmək barədə öhdəlik götürməsi barədə açıqlamasını şərh edərkən çıxış edib.

Bu radarların qurulması və fəaliyyət göstərməsi üçün Azərbaycana ABŞ-ın kömək göstərməsinə gəlincə, Z.Oruc deyib ki, ABŞ ölkənin vəziyyətini, onun regionda rolunu nəzərə alaraq Azərbaycana bu yardımı göstərir. Eyni zamanda, Azərbaycanın ABŞ-la bu tipli əməkdaşlıq üçün kifayət qədər potensialı var: "Hər halda ABŞ öz təhlükəsizliyini təmin etmək, o cümlədən radar sistemlərinin qurulmasında Azərbaycana yardım göstərməlidir. Çünki bu, ABŞ-ın milli maraqlarına uyğundur". Z.Oruc qeyd edib ki, enerji ehtiyatları və strateji mövqeyə malik olan Azərbaycanın möhkəmlənməsi Qərbin maraqlarına cavab verir. "Bu mənada Birləşmiş Ştatlar və Avropa üçün Xəzərdə nüfuzun itirilməsi, onların bu regionda maraqlarına zərər vurmaq demək olardı. Buna görə, Qərb Azərbaycanın Xəzərdə möhkəmlənməsində maraqlıdır və Xəzər sahilində radarların qurulmasına kömək edəcək.Çünki başa düşür ki, Azərbaycanı geosiyasi təhlükələrlə üz- üzə qoymaq olmaz". O deyib ki, bu regionda zəngin enerji resurslarının olması Azərbaycanın Xəzərdə güclənməsində ABŞ-ın maraqlı olduğunu təsdiq etmək üçün kifayətdir: "Xəzərdə enerji layihələrində işgüzar iştiraka malik Avropa da bunda maraqlıdır. Birləşmiş Ştatlar və Avropanın Xəzərdə öz nüfuzunu itirməsi onların regiondakı maraqlarına zərər gətirmiş olar. Eyni zamanda, Qərb Rusiya və İranın Xəzər hövzəsində nüfuzunun güclənəcəyi təqdirdə zərər çəkə bilər. Ona görə, Qərb ABŞ və Avropanın simasında Azərbaycanın Xəzərdə güclənməsində maraqlıdır. Bu baxımdan hesab edirəm ki, Azərbaycanın Xəzər sahilində radarların quraşdırılması üzrə fəaliyyəti birtərəfli mahiyyət daşımır. Yəni Qərb başa düşür ki, Azərbaycanı həm şimaldan, həm də cənubdan gələn geosiyasi təhlükələrlə üz-üzə qoymağa gərək yoxdur".

O, Xəzərin Azərbaycana aid sahilində bir neçə radar yerləşdirmək niyyətinin ölkənin milli təhlükəsizlik maraqlarından irəli gəldiyini, amma bunun İranın narazılığına səbəb olacağını da istisna etməyib: "Azərbaycan — İran münasibətləri tarixində Tehran tərəfindən belə narazılıqlara az rast gəlinməyib. Misal üçün bir neçə il əvvəl milli maraqların mühafizəsinin gücləndirilməsi üçün ABŞ-ın Azərbaycana təqdim etdiyi sualtı qayıqla bağlı da narazılıq olmuşdu. İran Qərb tərəfindən hücum olacağını nəzərə alaraq öz silahlarının bir hissəsini Xəzər sahilində cəmləməklə qabaqlayıcı tədbirlər görməyə cəhd edir və bu da Azərbaycan üçün müəyyən təhlükə yaradır".

**PƏRVANƏ**

## *Mübariz Qurbanlı:* "Azərbaycanın terrorizmə qarşı mübarizəsi beynəlxalq müstəvidə yüksək qiymətləndirilir"



"Azərbaycan terrorizmə qarşı fəal mübarizə aparır və bu istiqamətdə beynəlxalq koalisiyanın aktiv uzvüdür. Azərbaycanın bu fəaliyyəti beynəlxalq müstəvidə də yüksək qiymətləndirilir. ABŞ Dövlət Departamentinin hesabatında əks olunan məqamlar bu qiymətləndirməni ifadə edir. 2001-ci ildə ABŞ-da baş vermiş terror hadisəsi bütövlükdə terrora qarşı mübarizəni yeni formaya keçirdi". Bu açıqlama ilə YAP icra katibinin müavini, millət vəkili Mübariz Qurbanlı çıxış edib. Terrorizmin kökünün qədim olduğunu deyən M.Qurbanlı qeyd edib ki, müasir terrorizmin özünəməxsus xüsusiyyətləri var. Onun sözlərinə görə, müasir terrorizmdə texnoloji yeniliklərdən maksimum şəkildə istifadə olunur və bu da insan itkisini kütləviləşdirir. "ABŞ dünyada böyük güc sahibi olan dövlətdir. Lakin həyat göstərdi ki, ən güclü ölkələr belə, terrordan özlərini qoruya bilmirlər. Bütövlükdə, dünyada terrora qarşı geniş, çoxşaxəli mübarizə gedir və Azərbaycan da həmin dövrdə baş verən hadisələr zamanı yaradılan anti-terror koalisiyasına daxil olub. Azərbaycanın bu koalisiyaya daxil olması təsadüfi deyil. O dövrdə ümummilli lider Heydər Əliyev dünyada gedən hadisələri dəqiq müəyyən edərək Azərbaycanın bu prosesdəki yerini və rolunu açıq şəkildə ifadə etdi",- millət vəkili əlavə edib.

M.Qurbanlı deyib ki bu gün Azərbaycan beynəlxalq anti-terror koalisiyasının fəal üzvüdür. Erməni terroruna məruz qalan ölkə kimi Azərbaycan bu problemin yaratdığı fəsadları aydın şəkildə başa düşür: "Prezident İlham Əliyevin xarici siyasət xəttində terrora qarşı mübarizədə beynəlxalq əməkdaşlıq önəmli yerlərdən birini tutur. ABŞ Dövlət Departamentinin hesabatında da Azərbaycanın terrorizmə qarşı mübarizədə rolunun xüsusi qeyd edilməsi ölkəmizin tutduğu mövqenin dəyərləndirilməsidir". M.Qurbanlı bildirib ki, Azərbaycanın müəyyən sayda hərbi qüvvələri Əfqanıstanda anti-terror koalisiyası çərçivəsində səmərəli fəaliyyət göstərir, milli təhlükəsizlik orqanları terrorla mübarizədə xarici dövlətlərin müvafiq qurumları ilə əməkdaşlıq edir."Biz NATO-nun terrora qarşı mübarizə ilə əlaqədar fəaliyyətində iştirak edirik, həmçinin bölgədə terroru yaradan səbəbləri aradan qaldırmaq üçün müxtəlif xarakterli tədbirlər görürük. Ona görə də, ABŞ Dövlət Departamenti dünyada terrora qarşı mübarizə ilə əlaqədar hesabatını yayarkən Azərbaycan dövlətinin bu məsələ ilə bağlı fəaliyyətini çox yüksək dəyərləndirib. Azərbaycan hazırda da bu yöndə geniş fəaliyyət göstərir və hesab edirəm ki, bizim bu fəaliyyətimiz milli maraqlarımızla uzlaşır".

Xatırladaq ki, ABŞ Dövlət Departamenti bir neçə gün əvvəl açıqladığı hesabatda Azərbaycanın terrorizmlə mübarizə sahəsində uğur əldə etdiyini yazıb.

**PƏRVANƏ**

## *Vüqar Əhmədov:* "ABŞ-da Azərbaycanın sözünü deyən tərəfdaşlarımızın sayı artmaqdadır"

**Müsahibimiz Azərbaycan-Amerika Gəncləri İctimai Birliyinin (AAGİB) sədri Vüqar Əhmədovdur. Qeyd edək ki, AAGİB Azərbaycan həqiqətlərinin yayılmasında, ölkənin haqq səsinin dünyaya çatdırılmasında vacib işlər görür.**



— Əsas fəaliyyət istiqamətimiz Azərbaycan həqiqətlərinin dünyada təbliğ olunmasıdır. Təşkilatımız əsasən ABŞ-da fəaliyyət göstərir, yəni bu ölkənin təşkilatları, oradakı Azərbaycan diasporu, tələbələri ilə işləyir. Bu məqsədlə də əsas fəaliyyətimizi və son layihələrimizi həqiqətlərimizin təbliği istiqamətinə yönəltmişik. Son iki ildə QHT-lərə Dövlət Dəstəyi Şurasının dəstəyi ilə həyata keçirilən layihəmiz xaricdə təhsil alan azərbaycanlı gənclərin diaspor fəaliyyətində rolunun gücləndirilməsi olub. Son layihəmiz də bu ilin aprel ayında Vaşinqtonda Qarabağ forumunun keçirilməsi oldu. Bu layihə isə, Amerikanın "İrs" (Heritage) Fondu ilə əməkdaşlıq sayəsində həyata keçirildi. Böyük maraqla qarşılanan forumda azərbaycanlı gənclərin bölgədəki sülh və təhlükəsizlik məsələlərinə, Qarabağ münaqişəsinin həllinə yanaşmaları təqdim edildi. ABŞ ictimaiyyəti və birbaşa Konqreslə əlaqəsi olan ekspertlərin diqqətinə bölgədəki son durumu çatdırdıq və qeyd etdik ki, Gürcüstan-Rusiya münaqişəsindən sonra Qarabağ münaqişəsinin sülh yolu ilə həllindən gözləntilərimiz müsbət deyil və Azərbaycan gəncliyi beynəlxalq təşkilatların və aparıcı dövlətlərin münaqişənin həlli ilə bağlı səylərini nəticəsiz hesab etdiyi üçün, yeganə həll yolunu müharibədə görür. Gənclər təşkilatı olaraq fəal şəkildə Avropa və ABŞ-da yaşayan azərbaycanlı tələbələr, gənclər, həmçinin diaspor təşkilatları ilə əlaqələr saxlayır, layihələrin həyata keçirilməsində, Azərbaycan maraqlarının lobbiçiliyi, xüsusilə oradakı lobbi qrupları, beyin mərkəzləri ilə əlaqələr yaradaraq, Azərbaycan haqqında məlumatların çatdırılmasında birgə işləyirik. Hətta, Avropadakı azərbaycanlı gənclərin iştirakı ilə yeni təşkilatların yaranmasına da dəstək göstəririk.

***—AAGİB-nin perspektivdə nəzərdə tutduğu layihələrlə bağlı nə deyə bilərsiniz?***

— Təşkilatımız yeni yaranıb. Biz gələcək planlarla bağlı növbəti toplantıda müzakirə aparacağıq. Bir çox işlərin həyata keçirilməsini planlaşdırırıq. Birlik yeni yarandığı üçün qarşıda çox böyük planların reallaşdırılması gözlənilir. Yəqin ki, bütün bunlar növbəti görüşdə müzakirə ediləcək. Onu da deyim ki, əsas hədəf dünyada təhsil alan azərbaycanlı tələbələrlə, xaricdə yaşayan gənclərimizlə fəal işin aparılması, onları yaşadığı ölkələrdə diaspor işinə cəlb etmək, öz aralarında şəbəkələşərək, yaşadıqları ölkələrin ictimai-siyasi sferalarında fəal olmaları və təbii ki, Azərbaycan həqiqətlərinin, Qarabağ münaqişəsində haqlı mövqeyimizin dünyaya çatdırılması olacaq.

***—Amerikada Azərbaycanın tanıdılması ilə bağlı hansı İşlər görülür?***

— ABŞ-da Azərbaycanla bağlı çox iş aparılmalıdır. Qarşımızda ən vacib məsələ Qarabağ münaqişəsində haqlı mövqeyimizin dünya birliyinə çatdırılması və dəstəyin alınmasıdır ki, bu məsələ artıq bəllidir. Yəni, bununla bağlı dünyaya yeni şeylər çatdıra bilmərik. Sadəcə olaraq maksimum çalışaraq, münaqişənin həllinə təsir edə biləcək qüvvələri öz tərəfimizə çəkməliyik. Bunun üçünsə bizim güclü diasporumuz, daha sonra lobbimiz olmalıdır. Bu məsələ ilə bağlı hesab edirəm ki, Amerikada Azərbaycanın təbliğ olunması, oradakı nüfuzlu şəxslərin Azərbaycanın dostuna çevrilməsi, Azərbaycan diasporunun güclü təsir imkanlarına malik olması kimi istiqamətlərdə səylərimizi artırmalıyıq. Son görüşlər, tədbirlər onu göstərdi ki, ABŞ-dakı diasporumuz başqa ölkələrin və millətlərin diasporu ilə müqayisədə, müəyyən qədər zəif çıxış edir. Zəif olanda isə, təbii ki, hansısa arqumenti inandırmaq çətindir. Qarabağ münaqişəsində biz haqlı tərəfik və dünya da bunu bilir.

Lakin müəyyən mənada sözümüz eşidilmir, bunun eşidilməsi üçünsə, güclü olmaq, güclü tərəflərlə yaxın olmaq lazımdır. Reallıqdan çıxış edərək bu istiqamətdə daha çox iş aparmalıyıq. Diasporumuz dünya ölkələrinin cəmiyyətlərinin bütün tərəfləri ilə fəal şəkildə işləməli, təbliğat aparmalıdır. Amma nə qədər ki, gücümüz yetərincə deyil, nə qədər ki, müəyyən istiqamətlərdə axsamalar müşahidə olunur, səsimizin eşidilməyi də bir o qədər çətin olacaq. Təbii ki, bunlar vaxt tələb edir. Bu istiqamətdə bizim təşkilat da fəaliyyətini davam etdirir. Məhz bu səbəblərdən Avropa ilə müqayisədə, ABŞ-da daha çox işin aparılmasına ehtiyac var. Çünki Azərbaycan Avropaya məkan baxımından daha yaxındır. Bu gün Azərbaycan Avropada yerləşən beynəlxalq təşkilatlarda təmsil olunur. Avropa İttifaqı ilə müəyyən tərəfdaşlıq proqramlarında iştirak edir. Bununla yanaşı, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır ki, bu da diaspor işinə də təsirsiz ötüşmür. Bizim təşkilat da Avropada işləyir, müxtəlif beynəlxalq proqramlarda iştirak edir. Avropalılar Azərbaycan haqqında daha çox məlumata malikdir və buna görə də, onlarla anlaşmaq daha asandır. Avropada diaspor işimiz, lobbiçilik fəaliyyətimiz, Azərbaycanın təbliği, ölkə maraqlarımızın müdafiəsi baxımından daha bacarıqlıyıq, nəinki Amerikada. Çünki Amerika qlobal ölkədir və bu ölkənin maraqları regional deyil, qlobal götürülür. Buna görə də, ABŞ-da daha fəal olmaq lazımdır. Lakin onu da qeyd etmək lazımdır ki, ötən 10 illə müqayisədə, bu gün ABŞ-da Azərbaycanın dostları daha çoxdur. Azərbaycanın sözünü deyən tərəfdaşlarımızın sayı artmaqdadır.

Bu ilin sentyabr ayında Nyu-Yorkda BMT qərargahında beynəlxalq gənclərin iştirakı ilə "Münaqişələrin həllində gənclərin rolu və Qarabağ forumu" paneli mövzusunda forum keçirəcəyik. Bundan sonra, Avropanın digər şəhərlərində-Brüsseldə, Parisdə, Strasburqda da bununla bağlı silsilə görüşlər, dəyirmi masalar, konfranslar keçirməyi planlaşdırırıq. Vaşinqtondan sonra Nyu-Yorkda belə bir tədbirin keçirilməsi çox yaxşı bir uğur hesab oluna bilər. BMT bu gün dünyada sülhün əldə edilməsi və münaqişələrin həll olunmasında əsas dəstək göstərən beynəlxalq platformadır. Bizdə böyük resurslar var, amma əsas məsələ bunların konsalidasiya olunmasıdır. Misal üçün, ABŞ-da çoxlu tələbələr, gənclər, diaspor nümayəndələri var. Lakin onları səfərbər etmək, onlarla davamlı iş aparmaq çox vacibdir. Qarabağ forumunda da çalışacağıq ki, forum bacardığımız qədər geniş sahəni əhatə etsin. Həmçinin, Azərbaycandan və Amerikadan daha çox nümayəndənin iştirakına çalışacağıq və hazırda bunun üzərində iş gedir.

**PƏRVANƏ**

## Baş nazirin müavini Əli Həsənov məcburi köçkünlər üçün tikilən məhəllədə görülən işlərlə tanış olub

Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin (QMKİDK) sədri Əli Həsənov Qaradağ rayonunun Müşfiqabad qəsəbəsində məcburi köçkün ailələri üçün inşa olunan yaşayış binalarından ibarət məhəllədə tikinti işlərinin gedişi ilə tanış olub.Komitədən verilən məlumata görə, 22 hektar ərazidə 1410 məcburi köçkün ailəsi üçün salınan məhəllədə 16-sı 80, dördü isə 40 mənzilli olmaqla beşmərtəbəli 20 bina tikilir.

Məhəllədə 1296 şagird yerlik məktəb, 140 nəfərlik uşaq bağçası, kitabxana, klub, təcili tibbi yardım stansiyası, yanğın deposu, poçt binası da tikiləcək. Məhəllə qaz, su, elektrik enerjisi, mərkəzləşdirilmiş istilik sistemi ilə tam təchiz olunacaq. Məhəllənin tikintisinə cəlb olunan iki mindən artıq işçinin 70 faizi məcburi köçkündür. Məhəllədə parkın, idman meydançasının salınması da nəzərdə tutulub. Ə.Həsənov tikinti işlərini aparan şirkətlərin rəhbərləri ilə görüşərək ölkəmizdə məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərlə bağlı məlumat verib.Komitə sədri Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizdə məcburi köçkünlərin sosial problemlərinin həlli istiqamətində mühüm işlərin görüldüyünü vurğulayaraq deyib ki, bu işlər beynəlxalq qurumlar tərəfindən də yüksək qiymətləndirilir. Ə. Həsənov məhəllədə tikinti işlərinin yüksək səviyyədə aparılması ilə bağlı tapşırıqlarını verib.

**S.MÜRVƏTQIZI**

## Son iki həftədə Türkiyədə 115 PKK terrorçusu öldürülüb

### *İDRİS NAİM ŞAHİN:* "MÜHASİRƏYƏ ALINMIŞ TERRORÇULARIN İRAQA QAÇMASININ QARŞISINI ALMAQ ÜÇÜN TƏDBİRLƏR GÖRÜLÜR"

Türkiyədə son iki həftə ərzində keçirilən əməliyyatlar zamanı 115 PKK terrorçusu öldürülüb. APA-nın məlumatına görə, bu rəqəmi Türkiyənin daxili işlər naziri İdris Naim Şahin açıqlayıb. O, Hakkari bölgəsində mühasirəyə alınmış terrorçu qrupların. Şimali İraq qaçmasının qarşısını almaq üçün müvafiq tədbirlər görüldüyünü deyib. Bu gecə PKK terrorçularının qəfil hücumu nəticəsində 8 hərbçinin şəhid olmasına münasibət bildirən daxili işlər naziri hücuma dərhal cavab verildiyini, 14 terrorçunun atışma zamanı öldürüldüyünü, çoxlu sayda silah ələ keçirdiyini bildirib. Qeyd edək ki, dünən gecə PKK terrorçularının həyata keçirdiyi intihar hücumu nəticəsində Türkiyə Silahlı Qüvvələrinin 6 hərbçisi və iki köy qoruyucusu şəhid olub, 21 əsgər yaralanıb. Yaralıların vəziyyətinin ağır olmadığı bildirilir.

## *Sərdar Cəlaloğlu:* "Biz müxalifət olaraq iqtidara ideoloji cəbhədə də məğlub olmuşuq"



"Müxalifətin bu günə qədər sözü yaranmayıb. Sözün olmaması isə işin olmaması deməkdir".

Bu açıqlamanı APA-ya Azərbaycan Demokrat Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu verib. Müxalifət liderlərini nəzəri baxımdan ideoloji təbliğata üstünlük vermədiklərini deyən S.Cəlaloğlu partiya rəhbərləri tərəfindən ortaya elmi əsərlərin qoyulmadığını da vurğulayıb: "Karl Marks və Fridrix Engels sübut edirdi ki, sosialist ədəbiyyatı yaranmadan, sosialist inqilabı mümkün deyil. Ona görə də Marks, Engels, Lenin, Trotski, Stalin və digər sosialistlər, inqilaba qədər bütün sahələrdə minlərlə kitab yazdılar. Şəxsən mənim bu istiqamətdə bir sıra kitablarım nəşr olunub və əlimdən gələni etməyə çalışıram".

S.Cəlaloğlu qeyd edib ki, Azərbaycan cəmiyyəti üçün bu məsələ çox əhəmiyyətli olsa da, bu məqam siyasətçilərin diqqətindən qaçıb: "Elmdən kənar heç bir siyasətin mənası və xeyiri ola bilməz. AXCP sədri Əli Kərimliyə də Müsavat Partiyasının başqanı İsa Qəmbərə də dəfələrlə demişəm ki, kitab yazmasalar belə, açıqlamalarını, müsahibələrini bir yerə toplayıb, kitab şəklində nəşr etdirmək olar. Yəni bu, dünyada qəbul olunan normadır. Liderin birinci funksiyası ideoloji işlə məşğul olmaqdır. Bizdə isə elə bilirlər ki, əsas iş piket təşkil etməkdir. Aksiya keçirmirsənsə, siyasətçi deyilsən. Azərbaycanda siyasətçilərin yanlışlıqları budur".

S.Cəlaloğlu bu məsələdə iqtidar yetkililərinin fəaliyyətini qabardıb: "Diqqət yetirin, iqtidar mənsubları hər il öz lideri ilə bağlı mütəmadi kitablar yazır, ideoloji xətti təbliğ edən nəşrlər ortaya çıxarır. Bax, bunu bizim müxalifət anlamalıdır. Yəni müxalifətin məğlub olduğu məqamlardan biri də bununla bağlıdır. Biz ideoloji cəbhədə məğlub oluruq. Çünki müxalifət tərəfdarları kifayət qədər siyasi-ideoloji hazırlıq keçmir. Ona görə də partiyalardan çıxanlar olur. Hətta müxalifət partiyalarından çıxanlar sakit şəkildə iqtidarın yanında yer alır və hökumətin dəstəkçisi olurlar".

Sərdar Cəlaloğlunun sözlərinə görə, son prezident seçkilərində dövlət başçısı İlham Əliyevin vəkillərindən bir neçəsi Müsavat Partiyasının keçmiş üzvü olub: "Bunu necə izah etmək olar? Bir vaxtlar Müsavat Partiyasının siyasətini müəyyənləşdirən, sonradan digər tərəfə keçir. Eyni vəziyyət AXCP-yə də aiddir. Bu onu göstərir ki, müxalifət cəbhəsində ideoloji-siyasi iş yoxdur. Adamlar siyasi partiyalara ya liderə olan simpatiyalarına görə, ya da fərdi maraqlarını təmin etmək ümidi ilə gəlirlər. Halbuki partiyalaşma ideoloji işlə sıx bağlı olmalıdır və insanlar liderlərə onların ideyasına görə bağlanmalıdır".

Sərdar Cəlaloğlu onu da qeyd edib ki, müxalifət düşərgəsində prezident seçkilərində vahid namizədin müəyyənləşdirilməsi məsələsi ilə bağlı həddindən artıq siyasi spekuliasiyalar edilir: "Bəzi şəxslər bu problemin lehinə və ya əleyhinə çıxmaqla özünə ucuz siyasi divident əldə etməyə çalışır". S. Cəlaloğlu bildirib ki, müxalifətdə bəzi siyasətçilər birlik əldə edildiyi təqdirdə yüz faiz qələbənin olacağını iddia edir: "Əslində isə bu belə deyil. Azərbaycanda siyasi hakimiyyətin dəyişilməməsinin çoxlu səbəbləri var. Bu səbəbləri biri zəruri, digərləri isə kafidir. Zəruri olan müxalifətin birliyidir. Amma kafi şərtlər beynəlxalq ictimiyyətin dəstəyi, seçkilərin saxtalaşdırılması imkanının azaldılması, xalqın fəallığı və sairədir. Bir şeyi anlamaq lazımdır — Azərbaycanda siyasi müxalifətin birliyi olmasa, seçkilərə 3-4 namizədlə qatılan müxalifət uduzacaq. Bunu səmimi şəkildə etiraf etməliyik".

S. Cəlaloğlu deyib ki, müxalifət seçkilərə ayrı-ayrı namizədlərlə qatılarsa, onların iqtidarın namizədini udmaq şansı yoxdur: "Bu baxımdan ayrı-ayrı namizədlər şəklində seçkilərə getməyin heç bir mənası yoxdur. Bu, o cümlədən İctimai Palataya da aiddir. Çünki İctimai Palata bütövlükdə müxalifət demək deyil, mən İctimai Palatanı müxalifət düşərgəsində ayrıca bir qüvvə kimi görürəm. Biz Qərbə deyə bilmərik ki, siz niyə seçkilərlə bağlı bizə dəstək vermədiniz. Bunu anlamaq üçün nə böyük alim olmaq lazımdır, nə politoloq olmaq lazımdır".

ADP sədri qeyd edib ki, müxalifət paraleloqram şəklində güc toplaya bilməyəcəksə, ortada siyasi gücün olacağından söhbət gedə bilməz: "Mən zaman-zaman mitinqlərin əleyhinə çıxmışam. Bəzən məni ittiham edərək deyirlər ki, Sərdar iqtidarın tapşırığını yerinə yetirir. Əslində bu mövqeyimi müdafiə də etmişəm. Azərbaycan müxalifəti hakimiyyət uğrunda mübarizədə tələb olunan şərtlərin bir-ikisinə əməl edib. Ona görə də son 20 ildə müxalifətin mübarizəsi ölkədə heç bir dəyişikliyə gətirib çıxarmayıb".

## Azərbaycanda Avstriya vətəndaşına qarşı cinayət törədən şəxs həbs edilib

Azərbaycanda Avstriya vətəndaşına qarşı cinayət törədən şəxs həbs edilib. Bu barədə APA-ya Bakının Nəsimi Rayon Polis İdarəsindən bildirilib. Məlumata görə, 22-ci Polis Bölməsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində cari il yanvarın 29-da Avstriya vətəndaşı Urufi Özgülü döymüş Yevlax rayon sakini Səyyad Hətəmov tutularaq istintaqa təhvil verilib.

## Gizirimiz yol qəzasında ölüb

Azərbaycan ordusunun giziri yol qəzasında ölüb. Bu barədə APA-ya Baş Dövlət Yol Polisi İdarəsindən bildirilib. Məlumata görə, bir neçə gün əvvəl Gəncə şəhərində Astara rayon sakini Kamran Səfərov idarə etdiyi maşınla qəza törədib. Nəticədə ağır vəziyyətdə xəstəxanaya yerləşdirilən K. Səfərov ötən gün orada dünyasını dəyişib.

Polisdən həmçinin bildirilib ki, hadisə zamanı dünyasını dəyişən K. Səfərov Müdafiə Nazirliyinin Gəncədə yerləşən "N" saylı hərbi hissəsinin giziri olub.

## İranın Azərbaycan vətəndaşları üçün tətbiq etdiyi viza rejimi qüvvəyə minib

### NAXÇIVANA İRAN ƏRAZİSİNDƏN TRANZİT KEÇİD EDƏN VƏTƏNDAŞLARIMIZ DA VİZA ALMALI OLACAQLAR

Avqustun 31-dək İran ərazisindən keçərək Naxçıvana gedən Azərbaycan vətəndaşları viza almalı olacaqlar. Bu barədə APA-ya Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. XİN-dən bildirilib ki, Naxçıvandan Bakıya gələnlər İranın Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən konsulluqlarına, Naxçıvana gedənlər isə İranın Bakıdakı səfirliyinin konsulluq şöbəsinə müraciət etməlidir.

Qeyd edək ki, İranın Azərbaycan vətəndaşları üçün müvəqqəti olaraq tətbiq etdiyi viza rejimi dünəndən qüvvəyə minib. İranın Azərbaycandakı səfirliyinin mətbuat xidmətindən APA-ya bildiriblər ki, 5-31 avqust tarixlərində bu ölkəyə səfər etmək üçün viza alacaq Azərbaycan vətəndaşları rüsum ödəməyəcəklər. Viza almaq üçün pasportun birinci səhifəsinin surəti, şəxsiyyət vəsiqəsinin surəti və iki ədəd fotoşəkil tələb olunur.

İran Azərbaycanla viza rejimini müvəqqəti olaraq bərpa edib. Viza rejiminin yenidən tətbiqinə səbəb bu ay Tehranda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət başçılarının zirvə görüşünün keçirilməsidir. İran Xarici İşlər Nazirliyi artıq bununla bağlı Azərbaycan Xarici İşlər Nazirliyinə nota göndərib. Notaya əsasən qeyd olunan zirvə görüşü ilə əlaqədar avqustun 5-dən 31-dək Azərbaycan vətəndaşlarının İrana səfər etməsi üçün viza rejimi tətbiq olunacaq. Bu tarixdən sonra əvvəlki viza rejimi bərpa ediləcək. APA-nın Cənub bürosunun məlumatına görə, hələlik Astara Gömrük İdarəsinin keçid məntəqəsindən qonşu ölkəyə viza ilə keçən olmayıb. İdarədən bildiriblər ki, Azərbaycanın sərhədyanı rayonlarının əhalisi rayon polis şöbələrindən aldıqları sadələşdirilmiş viza ilə qonşu ölkəyə gedib-gəlmək imkanına malik idilər: "İndi isə İrana getmək üçün bu ölkənin Azərbaycandakı səfirliyinə müraciət edərək, viza almaq lazımdır. Viza ilə bağlı müəyyənləşdirilmiş şərtlər həmçinin Naxçıvan Muxtar Respublikasının vətəndaşlarına da şamil edilib. Belə ki, onlar da İran tranzit keçid üçün bu ölkənin konsulluğundan viza almalıdırlar".

“Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə

# “İnternet mediada peşəkarlıq əvəzinə, saxta yollarla İP yığmaq yarışı gedir”

## “AZƏRBAYCAN TƏDRİS AKADEMİYASI” JURNALİSTİKA MƏKTƏBİNİN RƏHBƏRİ İLHAMƏ NOVRUZOVANIN FİKRİNCƏ, MƏTBUATDAN TELEVİZİYAYA GETMİŞ JURNALİSTLƏRİN PEŞƏKARLIĞI DAHA YÜKSƏK, SÖZ EHTİYATI DAHA GENİŞ OLUR”

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*(Əvvəli ötən sayımızda)*

***— Hazırda televiziya sahəsində hansı formada fəaliyyət göstərirsiniz?***

— AzTV-də Teleradio Akademiyasının prorektoru vəzifəsində çalışıram. Bu da mənim müəyyən mənada son 2 ildə göstərdiyim pedoqoji fəaliyyətimin davamıdır. AzTV-nin sədri Arif Alışanov Akademiyanı Azərbaycan üçün olduqca perspektivli tədris ocağına çevirməkdə çox qərarlıdır. Haqqımız da var — çünki teleradiomuzun tarixi və peşəkarlıq kanonları kökünü, mayasını AZTV-dən alıb. Zaman bu akademiyanın hədəflərini göstərəcək, özü də tezliklə. Əslində bizdə dənizçilik, neft, diplomatiya üzrə ixtisaslaşmış təhsil qurumları var, niyə də teleradio ixtisası üzrə təhsil verən qurum olmasın?

***— İlhamə xanım, bayaq internet mediadan danışdınız. Sizcə, bu şəbəkə televiziyanı, mətbuatı sıradan çıxara bilərmi?***

— “Moskva göz yaşlarına inanmır” filmində elə bir fikir var ki, “tezliklə teatr belə, olmayacaq, televiziya hər şeyə qalib gələcək”. Amma insan təxəyyülü o qədər güclüdür ki, bir də gördün, hətta TV-ni də üstələyən yeni texnologiya yarandı. İndi nə bilmək olar ki, internet mediadan da üstün bir vasitə ixtira edilməyəcək? Bayaq dediyim kimi, qəzetləri iyini, qoxusunu da sevməyimə rəğmən, təəssüflə demək olar ki, qəzetçilik arxa plana keçir. Amma çap mediasında çalışan peşəkarların sayı yenə də çoxdur. İş yerlərini itirmək təhlükəsinə görə, onlar da yavaş-yavaş internet mediasına keçirlər. Əsas problem odur ki, indi hər kəs, hətta jurnalistikadan doğru-dürüst baş aça bilməyənlər belə özünə bir sayt açır. Ya da hər saytda bir peşəkar var, amma təsəvvür edin ki, bu peşəkarların 5-6-sı yığışıb bir media qurumu açsalar, hansı effektləri verərdi. Bizdə isə bir imza özünü təsdiq edən kimi, iş yerindən ayrılıb özü təsisçi olur. Ətrafına da yazmağı bacarmayan insanları yığır. Peşəkar kollektiv başqa şeydir. Mən çap mediasını oxumağa üstünlük verirəm, çünki orda daha çox peşəkarlıq var və səviyyəsiz yazıları qəzetə qoymağı özlərinə sığışdırmırlar. İnternet mediasının bəzi “nümunələri” isə sanki əxlaqsızlıq, şərəfsizlik yaymaqda bir-biriylə yarışa girirlər. Xəbər saytını açanda bilmək olmur ki, bu informasiya saytıdır, yoxsa erotik-pornoqrafik? Əxlaqsız şəkillər, yazılar baş alıb-gedir. Senzuranın tərəfdarı olmasam da, internet mediasına mütləq nəzarət mexanizmi lazımdır. Bir tərəfdən deyirik ki, interneti boğmaq olmaz. Amma bu yolla biz hara gedirik. Daha çox ziyarətçi cəlb etmək üçün hər şeyə əl atırlar. Lap 30-40 min insan bir xəbəri oxudu, bəs bu xəbər cəmiyyətə nə ötürdü, nə mesaj verdi? Saytlarımız daha çox kriminal, şiddət dolu xəbərlərə üstünlük verirlər, adama elə gəlir ki ətrafda ancaq neqativ hallar baş verir. Kimsə kimi öldürdü, qız özünü asdı, kimsə intihar etdi, azyaşlı uşaq zorlandı və s. tipli xəbərlərdə hadisənin iştirakçıların adları, kəndin adı çəkilir, ünvan dəqiq göstərilir. Yaddan çıxarırlar ki, bu insan həyatıdır və o insanlar yaşamağa davam etməlidirlər, niyə onların adını çəkməklə həyatlarını məhv edirsiz? Məhkəmə olmadan, qərar çıxmadan, kiminsə adını yazmaq, kimisə qatil olmaqda ya pedofillikdə suçlamaq olar? Bu 5 manatlıq qonorara görə kiminsə həyatını tamamilə məhv etməkdir, cinayətdir. Biz mətbuatda olan problemlərdən danışanda birinci növbədə qeyri-peşəkarlığı vurğulamalıyıq. Mən təklif edirəm ki, bütün media qurumları, peşəkarlar, gənclər-hamımız dəyirmi masa arxasına keçib medianın problemlərini mütəmadi müzakirə edək və qarşımıza məqsəd qoyaq. Jurnalistika siyasiləşməməlidir. Müxalifət və iqtidar jurnalisti deyilən təbəqələr yaranıb. Ay media nümayəndələri, bəs jurnalistikada tərəfsizlik anlayışı hara yox olub? Bəzən mənə elə gəlir ki, indi əsl jurnalist kimi neytral olmaq daha təhlükəlidir, nəinki bu “cəbhələrdə” təmsil olunmaq. Parçalanma gedir, hamı bir-birini söyür. Şəxsən şahidi olmuşam ki, ağzı söz belə tutmayan və özünü “siyasətçı” hesab edən biri 1 neçə saytın redaktorunu sanki muzdlu imiş kimi tutaraq, ayda 100 manata ya balıq qonaqlığına özünü guya ki, PR etdirir, əslində isə başqalarını söyür. Ürəyim ağrıyır bu mənzərəyə — mənim jurnalistikam, Zərdabinin mirası gərək belə olmayaydı. Gərək belə ucuzlaşdırılmayaydı media... Bəzən deyirlər ki, jurnalistikada pul azdır, ona görə peşəkarlar azalır. Mediada həmişə pul az olub. Amma oxunaqlı sayt, qəzet yaratdıqda reklamlar hesabına pul qazanmaq olar. Pul qazanmaq üçün jurnalistikadan istifadə edənlər, şantaj edənlər isə tamamilə ayrı söhbətdir. Bu nəinki jurnalistika, heç insanlıq deyil!



***— Bəlkə cəmiyyət necədirsə, mətbuat da onu əks etdirir...***

— Bəlkə əksinə? Əslində bu geniş araşdırma mövzusudur. Hərdən qibtə ilə deyirik ki, Qərbdə jurnalistlər böyük pullar qazanırlar. Gəlin baxaq, bizdə media o səviyyədədirmi? Mənzərə fərqlidir. Jurnalistikaya gələn gənclərin əksəriyyəti jurnalist deyil, aparıcı olmaq arzusundadır. Çünki bu gün efirləri peşəkarlıq nöqteyi-nəzərindən deyil, bədən ölçüləri baxımından “standartlara” uyğun gələn,balans saxlamaqdan xəbəri belə olmayan, beynini işlətməyən, üzərində çalışmayan, aparıcılığı tovuz quşu kimi bəzənib-düzənməkdə görən, bəzən hətta dil qüsuru belə olan insanlar zəbt edib. Mənim fikrimcə, sırf bu nüansa gəldikdə, AzTV-dən başqa heç bir kanalda ədəbi dilin qaydaları gözlənilmir.

***— İlhamə xanım, KİVDF-nin fəaliyyətini necə qiymətləndirirsiz? Bu dəstək mətbuatda hansı irəliləyişə səbəb ola bilər?***

— Mən istənilən layihəni, dəstəyi jurnalistlər üçün şans hesab edirəm. Hətta jurnalist bir diplom belə aldıqda sevinir və stimul qazanır. Hərdən tənqid edirlər ki, yeni başlayan jurnalist nə edib ki, onu fərqləndirib diplom verirlər. Amma istedad varsa, sezilirsə, bunun nəyi pisdir? İstənilən layihə, müsabiqə obyektiv və şəffaf keçiriləndə jurnalistlər arasında sağlam rəqabət də yaranır. Müsbət cəhətdir ki, KİVDF həm müxalifət, həm iqtidar yönlü qəzetlərə təqribən eyni dərəcədə dəstək verir. Bunu müsbət qiymətləndirirəm.

**Pərviz SADIQOV**

**Səhifədəki material Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub**

# Mənəvi borc

## “GETDİYİMİZ XARİCİ ÖLKƏYƏ AZƏRBAYCANI DA APARMALIYIQ”

Biz həmişə gileylənirik ki, Qarabağ problemi, o cümlədən bütövlükdə ölkəmiz haqqında həqiqətləri beynəlxalq arenaya, dünya xalqlarına çatdırmaqda düşmən ermənilərdən çox geridə qalırıq. Həqiqətən də maliyyə, iqtisadi imkanlarımız, Qafqaz bölgəsində tutduğumuz strateji coğrafi mövqe, təcavüzə məruz qalan tərəf olmağınıza rəğmən biz ideoloji cəbhədə də Ermənistana uduzuruq və əsasən müdafiə mövqeyindən çıxış edirik. Şübhəsiz bu geriliyi aradan qaldırmaq, ölkəmiz və problemlərimizlə bağlı beynəlxalq aləmdəki boşluğu doldurmaq dövlət siyasətinin tərkib hissəsi kimi hakimiyyətin üzərinə düşən vəzifədir. Bununla belə, bu ölkənin vətəndaşı kimi bizlər də problemin uğurlu həllində, üzərimizə düşən missiyanı yerinə yetirməklə dövlət institutlarına kömək etməliyik. Xaricdə yaşayan soydaşlarımız öz yerində, hər il müxtəlif məqsədlərlə (ticarət, turist, istirahət, qastrol səfərləri, idman yarışları və s.) minlərlə vətəndaşlarımız yaxın və uzaq xarici ölkələrə səfərə gedir. Əgər bu insanlar asudə vaxtlarında getdiyi ölkədəki, icmalara, çevrələrindəki yerli sakinlərə ölkəmiz haqqında, erməni iddiaları barədə bildiyi qədər informasiya versə bunun çox böyük faydası olar. Təəssüf ki, heç də hamımız vətəndaş olaraq üzərimizə düşən missiyanı yerinə yetirmirik. Məhz bu səbəbdəndir Avropanın mərkəzində elə ölkələr var ki, orda nəinki yerli sakinlər, hətta bu ölkədə yaşayan türk toplumu belə, Azərbaycan barədə məlumatsızdır. Bu acı həqiqəti biz bu günlərdə



Almaniyadan turist səfərindən qayıdan “Azərpoçt” MMC-nin 3 saylı filialının baş mütəxəssisi Adil Kərimovdan öyrəndik. Adil müəllim deyir ki, səfər zamanı Almaniyanın 4 min türk yaşayan Şörnberq və Ştutqard şəhərlərində olub. Maraqlıdır ki, hətta qardaş türklərində Azərbaycanın tarixi keçmişi, bu günü, mədəniyyəti haqqda bilgiləri yox dərəcəsindədir”... Təəccüb etdim ki, necə ola bilər ötən bu 20 il ərzində bura gəlib — gedən yüzlərlə həmvətənlərimiz bu topluma Azərpbaycanla bağlı informasiya verməyib. Axı bu işdə nə tərcüməçiyə, nə pula ehtiyac yoxdur. Bu boşluğu nə yollasa doldurmaq lazım idi. Şörnberq şəhərindəki Fateh camisinin başqanı Hikmət bəy və Hacı Ömərlə görüşdüm. Qərara gəldik ki, elə camidə toplumun bir kəsimi ilə görüş keçirək. İyulun 19 — u gecə namazından sonra mən camidə toplaşanlar qarşısında çıxış edərək ölkəmizin tarixi, mədəniyyəti erməni təcavüzü fonunda üzləşdiyimiz faciələr, Türkiyə — Azərbaycan qardaşlıq əlaqələrinin keçmişi, bu günü, ötən əsrin əvvəllərində türk paşalarının ordunun başında Azərbaycana xilaskar kimi gəlmələrindən, Bakı — Tblisi — Ceyhan neft, Bakı — Ərzurum qaz kəmərlərinin iqtisadi və siyasi əhəmiyyəti barədə ətraflı məlumat verdim. Camidə quraşdırılmış böyük ekranda özümlə apardığım, bərpa edilərək yenidən həyata qaytarılmış qədim musiqi alətlərimizi nümayiş etdirdim. Tədbirin soununda iştirakçılara dövlət rəmzlərdən ibarət xırda suvinirlər hədiyyə etdim. Görüşə qatılanlar təəccüb və təəssüflə bildirdilər ki, bu günə qədər onlara bu barədə informasiya verən olmayıb. Caminin başqanı Hikmət bəy görüşdən məmnun qaldığını söyləməklə yanaşı, ətraflı məlumat üçün mənə təşəkkür etdi. Sonra da belə razılığa gəldik ki, Xocalı faciəsinin növbəti ildönümü ərəfəsində mən yenidən Almaniyaya gedim və bu dəfə həm məkanın, həm də görüşlərin sayını artıraq. Hesab edirəm ki, öz şəxsi vəsaitim hesabına olsa da, bunu etmək vətəndaş olaraq mənim mənəvi borcumdur. Ona görə də çalışacam növbəti səfərim daha məhsuldar olsun. Məncə hər birimiz getdiyimiz xarici ölkəyə mini — Azərbaycan da aparmalıyıq.”

**Elnur ƏLƏSGƏRLİ**

# "Mən oğlumdan bu uğuru gözləyirdim"

**Güləş üzrə London olimpiadasının bürünc mükafatçısı olan Emin Əhmədovun atası Vidadi Əhmədov Qol.Az saytının suallarını cavablandırıb.**



***—İlk öncə özünüz haqda məlumat verməniz istərdik.***

—Mən Qubadlı rayonunda doğulmuşam. Lakin uşaqlıqdan Bakıda yaşayıram. Orta məktəbə, birinci sinifə də 1966-cı ildə, elə Bakıda getmişəm.

***—Emini olimpiadaya yola salarkən nə düşünürdünüz? İçinizdə bir inam vardımı ki, oğlunuz medal qazanacaq?***

—Bilirsiniz, Emin güləşlə uzun müddətdir ki, məşğul olur. Zarafat deyil, düz 10 ildir, idmandadır. Bir çox beynalxalq yarışların iştirakçısı, turnirlərin qalibi olub. İstənilən idamançının arzusu olimpiadaya düşməkdir. Bunun üçün uzun müddət müxtəlif yarışlarda nailiyyətlər qazanmaq lazımdır. Ona görə də, mən Emindən bu uğura imza atacağını gözləyirdim. Mən bu uğur münasibətiylə bütün Azərbaycan xalqını təbrik edirəm. Bu, təkcə Eminin və mənim yox, bütün xalqımızın qələbəsidir.

***—Yəqin ki, Eminin uğurundan sonra sizi xeyli insan təbrik edib.***

—Doğrudan da təbrik zəngləri gəlməkdə davam edir. Bunlar xüsusilə qohumlar və dostlardır.

***—Oğlunuzu dəstəkləmək üçün niyə siz özünüz də olimpiadaya yollanmadınız?***

—Vallah, iş-güc o qədərdi ki.... Birdə, Emin mübarizə apararkən dözə bilmirəm. Nədənsə, onun çıxışına baxa bilmirəm. Yəni, əziyyətini görəndə ürəyim dözmür. Cəmi bir dəfə, Sərhədçi İdman Kompleksindəki çıxışını canlı izləmişəm. Elə başa düşürəm ki, o da ailə üzvlərini arenada görəndə narahatlıq keçirir, daha çox həyəcanlanır.

**Əli HƏYATİ**

## Türkiyənin 61 idmançısından "sıfır" nəticə

2012-ci il London Yay Olimpiya Oyunlarına rekord sayda idmançı ilə qatılan Türkiyə olimpiya yığması hələ də medal qazana bilməyib. Olimpiadanın ilk 9 günü ərzində qardaş ölkənin 114 idmançısından 61-i çıxışlarını başa vurub. Onlar 9 növdə — badminton, stolüstü tennis, üzgüçülük, cüdo, velosiped idmanı, oxatma, idman gimnastikası, voleybol və ağırlıqqaldırma növlərində çıxış ediblər. Lakin heç biri mükafatçılar sırasına düşə bilməyib. Qalan 53 idmançı 7 növdə medal uğrunda mübarizə aparacaq. Bunlar atletika, atıcılıq, boks, güləş, yelkən idmanı, basketbol və taekvondodur.

Qeyd edək ki, Azərbaycan 2012-ci il London Yay Olimpiya Oyunlarında 15 növdə 53 idmançı ilə təmsil olunur. Olimpiadanın ilk 9 günü ərzində 32 idmançı çıxışlarını başa vurub. Onlardan 1-i gümüş, 2-si bürünc medal qazanıb.

## PFL "Qarabağ" – "Neftçi" matçının vaxtını dəyişdi

“Neftçi” klubunun UEFA Çempionlar Liqasının III təsnifat mərhələsinin “Neftçi” — “Hapoel” cavab oyunu ilə əlaqədar olaraq Premyer Liqanın II turunun “Qarabağ” — “Neftçi” matçının vaxtı dəyişdirilib.

Həmin görüşün vaxtı 10 avqust tarixindən 11 avqust tarixinə keçirilib.

## Bölgədə əhalinin asudə vaxtının səmərəli təşkilinə diqqət artırılıb

Əhalinin asudə vaxtının səmərəli təşkili istiqamətində Ağcabədi rayonunda son vaxtlar müxtəlif mədəni-kütləvi tədbirlər həyata keçirilir. Adıçəkilən rayon mədəniyyət və turizm şöbəsi tərəfindən yay aylarında Heydər Əliyev adına mədəniyyət və istirahət parkında sakinlər qarşısında təşkil edilən geniş konsert proqramları da belə tədbirlərdəndir. Şöbənin nəzdində fəaliyyət göstərən mədəniyyət müəssisələrinin ansambl və özfəaliyyət kollektivlərinin iştirakı ilə xüsusi qrafikə əsasən may ayından etibarən hər həftənin şənbə günləri konsert tamaşaları nümayiş etdirilir. Rayon mədəniyyət və turizm şöbəsinin müdiri Rza Quliyevin sözlərinə görə, sözügedən tədbirlərə şəhər sakinləri ilə yanaşı, bölgənin bütün qəsəbə və kəndlərindən dəvət olunan sakinlər də qatılırlar. Tədbirlərdə şəhər, qəsəbə və kənd musiqi məktəblərinin, mədəniyyət evləri və klublarının, eləcə də Qarabağ Muğam Mərkəzinin bədii kollektivləri fəal iştirak edirlər. Onların ifasında tamaşaçılara təqdim olunan mahnılar, muğam sənəti nümunələri, müxtəlif səhnə əsərlərindən parçalar tədbirə qatılanlar tərəfindən böyük rəğbət və ruh yüksəkliyi ilə qarşılanır. Belə tədbirlərin müntəzəm keçiriləcəyini vurğulayan şöbə müdiri onu da əlavə edib ki, konsert proqramları cəbhə bölgəsində yerləşən hərbi hissələrin əsgərlərin qarşısında da tez-tez təşkil olunur.

Rayon mərkəzində, qəsəbə və kəndlərdə fəaliyyət göstərən kitabxanalarda, klublarda, Qarabağ Muğam Mərkəzində təşkil edilən sərgilər, müsabiqələr, yaradıcı insanlarla görüşlər də əhalinin asudə vaxtlarının və istirahətinin səmərəli keçirilməsində mühüm rol oynayır.

**Yəhya PAŞAZADƏ**

Məryam Əli qızı Əli-zadənin adına verilmiş 1700258152 nömrəli VÖEN itdiyi üçün etibarsız sayılır.

11.04.1951-ci il təvəllüdlü Cahangirov Böyükağa Əliağa oğlunun adına verilmiş əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

Müseyib Məcidov, Rəşad Məcid və Yəhya Paşazadə Tofiq Gülmalıyevə əzizi

**RAMİNin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ənvər Əhməd Əli, Mirzə, Elçin, Əhliman və Muğan Xankişiyevlərə

**qardaşları Elmanın**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Q□zet 1992-ci il noyabrın 17-d□n çıxır.**

**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar □liyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov

Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet “Azərbaycan” nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: “525” şirkəti
İndeks: 0046, tiraj: 2250, sifariş:2695
“TURAN”, “TREND”, AzərTAc, “AssA-İradə”, APA v□ “OLAYLAR”ın informasiyalarından istifad□ olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.